**Dövlət Statistika Komitəsində “Qiymət indeksləri sistemi: nəzəriyyə və təcrübə” mövzusu üzrə seminar keçirilmişdir.**



2013-cü il noyabr ayının 22-də Dövlət Statistika Komitəsində Qiymət statistikası şöbəsinin təşkilatçılığı ilə “Qiymət indeksləri sistemi: nəzəriyyə və təcrübə” mövzusu üzrə bir sıra dövlət orqanlarının, KİV nümayəndələrinin və digər istifadəçilərin iştirakı ilə seminar keçirilmişdir.

Tədbirdə İqtisadiyyat və Sənaye Nazirliyindən, Vergilər Nazirliyindən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən, Energetika Nazirliyindən, Əmlak Məsələləri Dövlət Komitəsindən, Kənd Təsərrüfatı Nazirliyindən, Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən, Tarif (qiymət) Şurasından, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutundan, Səs qəzetindən və Komitənin Qiymət statistikası şöbəsinin əməkdaşlarının iştirakı ilə ümumilikdə 22 nəfər iştirak etmişdir. Aparatın Qiymət statistikası şöbəsinin müdiri E.Qasımzadə açılış nitqi ilə, sonra isə şöbə müdirinin müavini R.Vəliyev “Qiymət indeksləri sistemi: nəzəriyyə və təcrübə” mövzusunda təqdimatla çıxış etmişlər. Təqdimat zamanı istifadəçilərə fərdi və məcmu qiymət indekslərinin hesablanması (nəzəriyyə), Dövlət Statistika Komitəsinin Qiymət statistikası şöbəsi tərəfindən hal-hazırda hesablanan (təcrübə) və gələcəkdə hesablanması nəzərdə tutulan qiymət indeksləri, qiymət indekslərinin istifadəçilər arasında yayılması üsulları haqqında məruzələr edilmişdir. Daha sonra istifadəçilərə Dövlət Statistika Komitəsinin rəsmi veb saytı, saytda yerləşdirilən qiymət və digər sahələrin statistik məlumatları, metodologiyalar və s. haqqında məlumat verilmişdir. Sonda müvafiq mövzu üzrə fikir mübadiləsi aparılmış və yaranmış suallar komitənin nümayəndələri tərəfindən cavablandırılmışdır.





